**AUDİT 2023, 1 (39), səh. 165-173.**
**AUDIT 2023, 1 (39), pp. 165-173.**
**АУДИТ 2023, 1(39), стр. 165-173.**

**DOI: 10.59610/bbu1.2023.165-173**

*Əliyev Arif Lütvəli oğlu,*
*iqtisad elmləri namizədi,*
*Bakı Biznes Universiteti,*
*E-mail: barif1956@mail.ru*
*© Əliyev A.L., 2023*

**UOT - 631.1**

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA TAXILÇILIĞIN İNKİŞAF PRİORİTETLƏRİ

## X Ü L A S Ə

Ümummilli Lider Heydər Əliyevin müstəqilliyini bərqərar etmiş müasir Azərbaycan tarixində təkrarolunmaz yeri və rolu, uğurlu xarici və daxili siyasəti, ölkənin iqtisadi potensialının gücləndirilməsi ilə əlaqədar həyata keçirdiyi nəhəng quruculuq işləri hələ uzun illər araşdırılma və tədqiqat predmeti olacaqdır.

Təqdim olunan məqalədə, Ulu Öndər Heydər Əliyevin hələ 1969-1982-ci illərdəki rəhbərliyi dövründə Azərbaycanda xalq təsərrüfatı sahələrinin yenidən qurulma və inkişafına nəhəng kapital qoyuluşları cəlb olunması yolu ilə həyata keçirdiyi fəaliyyət müvafiq dinamika və göstəricilər təqdim edilməklə bir daha işıqlandırılır və bu aspektdə əhalinin etibarlı ərzaq təminatı üçün strateji əhəmiyyət kəsb edən taxıl kompleksində, ölkənin taxıl emalı sənayesinin təşəkkülündə, hazırki bu sənaye seqmentinin aparıcı hissəsini təşkil edən istehsal güclərinin yaradılıb ərsəyə gətirilməsində görülmüş işlərdən ətraflı bəhs edilir.

Müvafiq olaraq, məqalədə Ümummilli Lider Heydər Əliyevin ölkəyə rəhbərliyinin ikinci mərhələsinin başlanğıcında, ölkədə ictimai-iqtisadi və siyasi şəraitlə bağlı böhranın apogeyə çatdığı vəziyyət, o cümlədən ölkə əhalisinin əsas ərzaq məhsulu kimi taxıl və çörək məhsulları ilə təminatında yaranmış acınacaqlı durumun əsas səbəbləri göstərilir. Müəllif, ölkəni sarmış böhran vəziyyətində, əhalinin təminatında əvvəllər görünməmiş belə fərqli vəziyyətdə, məhz Ümummilli Liderin qətiyyəti və əzminin, iradəsinin, müdrikcəsinə uzaqgörənliyinin nəticəsi olaraq, vəziyyətin stabilləşdirildiyi və vaxt itirmədən bu sahədə islahatlara başlandığını vurğulayır və məhz bu yanaşmanı uğurlu həll modeli hesab edir.

Son olaraq müəllif, Ümummilli Lider Heydər Əliyevin qoyduğu irsin davam etdirildiyi, ölkə Prezidenti İlham Əliyevin ölkənin taxıl kompleksində son illər apardığı islahatların konkret nəticəsi kimi, əhalinin taxıl və çörək məhsulları ilə təminatında ölkədaxili mənbələrin xüsusi çəkisinin artımına diqqət yetirir və bu tədbirlərin həyata keçirilməsinin, işğaldan azad olunmuş torpaqlarda taxıl əkinlərinin genişləndirilməsi ilə birlikdə ölkədə ərzaq buğdasına tələbatın daha önəmli hissəsinin yerli istehsal hesabına təmin edilməsini stimullaşdıracağını proqnozlaşdırır.

**Açar sözlər:** taxıl kompleksi, strateji sahə, emal, islahat, kapital qoyuluşu.

## G İ R İ Ş

"Azərbaycanın Sovet dövründə inkişafının ən bariz nəticəsi odur ki, həmin dövrdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratmışdır". Bu sözlər xalqımızın böyük oğlu, Azərbaycan tarixində silinməz izlər qoymuş, Ümummilli Lider Heydər Əliyevə məxsus-dur. Əlbəttə, burada məsələ heç də, Ümummilli Lider Heydər Əliyevin həm müstəqillikdən əvvəl, həm də sonrakı dövrdə Azərbaycana rəhbərlik etməsi faktına bağlı deyil. Uca dağlar uzaqlaş-

**AUDİT 2023, 1 (39), səh. 165-173.**
**AUDIT 2023, 1 (39), pp. 165-173.**
**АУДИТ 2023, 1(39), стр. 165-173.**

dıqca daha əsrarəngiz və möhtəşəm göründüyü kimi, Ümummilli Lideri bizdən ayıran zaman kəsiyi böyüdükcə, Heydər Əliyev şəxsiyyətinin fenomenallığı, təkrarsızlığı, müstəsnalılığı daha qabarıq şəkildə özünü təsdiq etməkdədir.

Azərbaycanın taxıl kompleksinin təkamülü, əhalinin taxıl məhsulları ilə bu günkü həm kəmiyyət, həm də çeşid baxımından hərtərfli və etibarlı təminatı, əslində hələ keçən əsrin 70-ci illərindən başlayaraq Ümummilli Lider Heydər Əliyev tərəfindən bünövrəsi qoyulmuş ciddi platforma üzərində Möhtərəm Prezident Cənab İlham Əliyevin bu sahəyə qayğısının, "bazar iqtisadiyyatı" tələbləri və taxıl kompleksinin idarə olunması, dövlətin əhalinin çörək məhsulları ilə etibarlı təminatı kimi prioritetlərinin uzlaşdırılması ilə bağlı apardığı islahatların uğurlu nəticəsidir.

1990-cı illərin ortalarından başlayaraq, Ümümmilli Lider, Möhtərəm Heydər Əliyevin rəhbərliyi ilə başlanmış iqtisadi islahatların, "bazar iqtisadiyyatı"nın formalaşdırılması üçün görülmüş işlərin, həyata keçirilmiş tədbirlərin nəticələri, o cümlədən, əhalinin taxıl-çörək məhsulları kimi, həyati əhəmiyyət kəsb edən problemin həllində stabilliyin təmin edilməsi danılmazdır. Aparılmış torpaq islahatı keçən əsrin ikinci yarısı üçün xarakterik olan əhalinin taxıl məhsullarına tələbatının təmin edilməsində ölkədaxili mənbələrin xüsusi çəkisini artırmaq zəruriyyəti kimi bir problemin həllinə rəvac vermişdir. Yığılan taxılın ümumi həcmi və onun artım meyilləri göstərilən problemin həllinə bariz sübutdur.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycana birinci rəhbərlik dövrünün başlanğıcı ölkənin təzadlı durgunluq mərhələsinə təsadüf etmişdir. Bir tərəfdən təcili həllini gözləyən yığılmış problemlər, digər tərəfdən bu problemlərin uğurlu həlli üçün siyasi-mənəvi mühitin sağlamlaşdırılması, cəmiyyətdə qanunun aliliyinin təminatının, nizam-intizamın möhkəmləndirilməsinin, işgüzar mühitin gücləndirilməsinin, sosial-iqtisadi geriləmənin qarşısının alınmasının zəruriliyi. Qısa zaman kəsiyində, Azərbaycanda uğurlu idarəçilik üsullarının tətbiqi, sosial-iqtisadi geriləmənin qarşısının alınması, davamlı və sürətli inkişafın təmin edilməsi həm respublika, həm də keçmiş ittifaq səviyyəsində Ümummilli Lider Heydər Əliyevin nüfuzunu ciddi şəkildə artırmış və nəhayət onun, faktiki olaraq ikiqütblü dünyanın böyük bir qütbünün idarəçiliyini həyata keçirən nəhəng Sovet İttifaqının ali rəhbərliyində təmsilçiliyinə səbəb olmuşdur.

Heydər Əliyevin respublika rəhbərliyinə başlaması ilə Azərbaycan dinamik inkişaf yoluna qədəm qoymuş, 1971-1975-ci illərdə sənaye məhsulu istehsalı həcmi əvvəlki beş ilə nisbətən 50%, sənayedə əmək məhsuldarlığı 35% artmışdır. Qısa vaxt ərzində respublikada 64 iri sənaye müəssisəsi tikilib istifadəyə verilmiş, artıq 1975-ci ildə Azərbaycanda 219 məhsul dövlət keyfiyyət nişanı ilə buraxılırdı, halbuki 1970-ci ildə bu məhsulların sayı 9 idi. Azərbaycanın neft sənayesi sürətlə inkişaf etməyə başlamış, keçən əsrin 70-80-cı illərində respublikada 90 adda neft məhsulları istehsal olunurdu ki, bu da əvvəlki dövrlərlə müqayisədə 2.5 dəfə çox idi. Artıq 1985-ci ildə istismara verilmiş Bakı Dərin Dəniz özülləri zavodunun tikintisinə 450 milyon ABŞ dolları məbləğində investisiya qoyulmuş, Azərbaycan Sovetlər İttifaqında istehsal olunan neftçıxarma avadanlıqlarının 65%-ni verir, neftmaşınqayırma sahəsində dünyada öncüllərdən birinə çevrilə bilmişdi. Keçən əsrin 70-80-cı illərində energetika kompleksinin inkişafı prioritet sahələrdən birinə çevrilmiş, 1971-ci ildə Naxçıvanda Araz SES, 70-ci illərin ortalarında Tərtər SES, 80-ci illərin əvvəlində 380 min kilovatt gücündə Şəmkir SES, 1.2 milyon kilovatt gücündə Azərbaycan Dövlət Rayon Elektrik Stansiyası, Mingəçevirdə Qafqazın ən böyük istilik elektrik stansiyası olan "Azərbaycan" İES istifadəyə verilmiş, artıq 80-cı illərin sonuna ölkədə elektrik enerjisi istehsalı 23.2 milyard kilovata çatmış, Azərbaycanın enerji təminatında müstəqilliyi təmin edilmişdi. Bütövlükdə, Heydər Əliyevin ölkəyə birinci rəhbərliyi dövründə sənaye məhsulu istehsalı 2.6 dəfə artmış, 1981-ci ildə o vaxtkı qiymətlərlə 11 milyard manat təşkil edirdi.

Məhz bəhs edilən dövrdə, ölkədə 18.5 milyon kvadrat metr, yəni 376.1 min yeni

**AUDİT 2023, 1 (39), səh. 165-173.**
**AUDIT 2023, 1 (39), pp. 165-173.**
**АУДИТ 2023, 1(39), стр. 165-173.**

tikilmiş mənzil istifadəyə verilmiş, 2.2 milyondan çox vətəndaş və ya əhalinin üçdə biri mənzil-yaşayış şəraitini yaxşılaşdıra bilmişdi.

1969-1982-ci illər ərzində Azərbaycanda meliorasiya və su təsərrüfatına əvvəlki 50 illik dövrlə müqayisədə 2.5 dəfədən çox, yəni 2 mlrd.manatdan artıq vəsait qoyulmuşdu ki, bu aqrar sektorun sürətli inkişafı üçün ciddi əsas yaratmışdı. 1971-1975-ci illərdə kənd təsərrüfatında orta illik məhsul istehsalı 1.4 mlrd manata çatmışdı ki, bu da əvvəlki beş ilin səviyyəsindən 34% artıq idi. Kənd təsərrüfatında bütün sahələrin inkişafına – pambıqçılıq, üzümçülük, taxılçılıq, heyvandarlıq və s. xüsusi diqqət yetirilmiş, respublika üzüm istehsalına görə SSRİ-də ən qabaqcıl yerə çıxa bilmiş, 1976-80-cı illərdə əvvəlki beş illiyə nisbətən 3.2 mlrd manatlıq artıq kənd təsərrüfatı məhsulu istehsal olunmuşdu.

Əhalinin ən başlıca problemlərindən biri də onun maddi və sosial həyat şəraitinin təmin edilməsi, gündəlik tələbat mallarına olan ehtiyaclarının ödənilməsidir. Ancaq 1976-1980-ci illərdə 78 yeni yüngül və yeyinti sənaye müəssisəsi, o cümlədən Gəncədə ət kombinatı, Bakıda tikiş fabriki, ayaqqabı hissələri fabriki, Sumqayıtda üst trikotaj paltarları fabriki, Xudatda və Lənkəranda konserv zavodları,Naxçıvanda mineral su istehsal sahələri və digər istehsal müəssisələri işə salınmışdı. Bu illərdə respublikanın müxtəlif regionlarında 22 şərab zavodu tikilmişdir və respublikada üzüm emal edən qurğuların gücü üç dəfə artmışdı. Həmçinin yeyinti və yüngül sənaye sahələri texniki cəhətdən yenidən qurulmuş, yeyinti məhsulları sənayesi müəssisələrində müasir texnika və texnologiyanın tətbiqi, istehsal prosesinin avtomatlaşdırılması sahəsində 800-dən çox tədbir həyata keçirilmişdi. Ət və süd istehsalı sahəsində uğurlar daha böyük olmuşdu. 1976-1980-ci illərdə yüngül və yeyinti məhsulları istehsalı 1,4 dəfə, mədəni-məişət və təsərrüfat malları istehsalı 2,7 dəfə yüksəlmişdir. İstehlak mallarının çeşidi genişlənmiş, buraxılan məhsulların 4 mindən çoxu yeni, ilk dəfə buraxılmış, Gəncə Xalça Kombinatının işi yeniləşdirilmişdir. 1976-1980-ci illərdə yeyinti sənayesi məhsulları istehsalı 2,6 dəfə artmışdır. Respublikada ilkin çay emalı fabriklərinin sayı 11-dən 14-ə çatmış, iki çay çəkici-bükücü fabriki istifadəyə verilmişdir. Bu illərdə Azərbaycanda konserv məhsulları istehsalı da böyük sürətlə inkişaf etmişdi. 1980-ci ildə 450 milyon banka konserv buraxılmışdı ki, bu da 1970-ci ildəkinə nisbətən 2,4 dəfə çox idi. 1980-ci ildə Azərbaycanda 76,4 min ton ət, 29,1 min ton kolbasa məmulatları, 219,6 min ton üzlü süd məhsulları, 54,8 min ton bitki yağı, 94,9 min ton qənnadı məmulatı, 164,1 milyon yarım litirlik şüşə qabda mineral sular, 117,8 min ton duz, 18,6 min ton təbii çay istehsal olunmuşdu. 70-80-ci illərdə üzüm emalı və satışı sahəsində də xeyli irəliləyiş olmuşdu. Bu illərdə Azərbaycanda üzüm satışı 2,1 dəfə çoxalmışdı. Azərbaycanda şərabçılığın sonrakı inkişafında Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin «Azərbaycan SSR-də kənd təsərrüfatını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında» 1979-cu ildə qəbul etdiyi qərar mühüm rol oynadı. 1970-80-ci illərdə respublikanın Şamxor (Şəmkir), Xanlar, Lerik, Yardımlı, İsmayıllı, Ağsu, Dəvəçi, Zəngilan və Abşeron rayonlarında şərabçılıq sənayesi istehsalı üzrə aqrar birliklər, Cəlilabad, Tovuz, Şamaxı, Qazax və Füzuli rayonlarında isə aqrar-sənaye komplekslərindən ibarət olan sovxoz-zavodlar yaradıldı. Nəticədə, 1970-ci ildə respublikada 22,7 milyon dekalitr şərab, 526 min dekalitr konyak istehsal edildiyi halda, 1980-ci ildə şərab istehsalı 70,7 milyon dekalitrə, konyak istehsalı 1,16 milyon dekalitrə çatmışdı. 70-80-ci illərdə Azərbaycanda 2 milyon tonluq müasir tipli ilkin şərab emalı zavodları tikilib istifadəyə verilmişdi. Bakıda fəaliyyət göstərən 1 və 2 saylı şərab zavodları yenidən qurulmuş, istehsal edilən şərabların növü isə 40-dan 60-a çatdırılmışdı. 70-80-ci illərdə Azərbaycanda yeyinti və yüngül sənayenin digər sahələri də xeyli inkişaf etmişdi. Lakin 80-ci illərin ikinci yarısında keçmiş SSRİ-də gedən proseslər Azərbaycanda da bu sahənin inkişafına ağır zərbə vurmuşdu.

1970-82-ci illərdə Azərbaycanda iqtisadiyyatın inkişafına 24 mlrd.manata yaxın kapital qoyuluşu olmuşdu ki, bu da 1920-82-ci illərdəki vəsait qoyuluşunun 58%-ni təşkil

AUDİT 2023, 1 (39), səh. 165-173.
AUDIT 2023, 1 (39), pp. 165-173.
АУДИТ 2023, 1(39), стр. 165-173.

edirdi. Müvafiq olaraq ölkədə kənd təsərrüfatının sürətli inkişafı aqrar sənaye kompleksinin, yerli xammalın emal sənayesinin inkişafını şərtləndirirdi. 1971-80-cı illər ərzində respublikanın yeyinti sənayesinin inkişafına 455 milyon manat kapital qoyuluşu həyata keçirilmiş, bu sahədə əsas fondların artımı əvvəlki dövrlə müqayisədə 2.3 dəfə artmışdı. Qısa vaxt ərzində tikilərək istismara verilmiş qida sənaye müəssisələri hesabına, respublika geri qalmış aqrar ölkədən, məhz aqrar məhsulun sənaye emalı məhsullarının ixracatçısına çevrilə bilmişdi. Belə ki, üzümçülük-şərabçılıq, mineral sular, faraş tərəvəz, meyvə-tərəvəz konserv sənayesi, qənnadı məhsulları, qeyri-ərzaq aqroemal sənayesi olaraq pambıqçılıq, ipəkçilik, tütün xammalı və s. kimi məhsulların keçmiş SSRİ respublikalarına ixraçı əvvəlki dövrlərlə müqayisədə bir neçə dəfə artmışdı.

Yuxarıda göstərilənlər aqrosənaye kompleksinin ayrıça seqmenti olan, taxıl emalı (unyarma və qarışıq yem sənayesi), çörəkbişirmə və makaron sənaye sahələrinin 1970-ci illərdən sonrakı dinamik inkişafı üçün də xarakterikdir. Lakin Azərbaycanda taxıl emalı sənayesinin inkişafından danışarkən, bir məsələni vurğulamaq vacibdir. On illər ərzində Sovet İttifaqı daxilindəki regionlararası əmək və məhsuldar qüvvələrin yerləşdirilməsi ilə bağlı bölgüyə müvafiq olaraq, Azərbaycan kənd təsərrüfatının qarşısında ümumittifaq fondlarına pambıqçılıq, meyvə-tərəvəz, sonrakı dönəmlərdə üzümçülük-şərabçılıq məhsullarının göndərilməsi prioritet vəzifə olaraq qoyulmuş, dövlətin əhalimizin taxıl məhsulları ilə təminatı öhdəliyi isə ümumittifaq fondları hesabına, ciddi bölgü sisteminin tətbiqi ilə həyata keçirilmişdir. Bütövlükdə keçmiş Sovet İttifaqında taxıl məhsullarının istehsalı, dövriyyəsi, bölüşdürülməsi strateji olaraq sərt dövlət inhisarçılığı ilə əhatə olunmuş, fondların idarəolunması bilavasitə ittifaq nazirliyinin prioriteti olmuşdur. Azərbaycan əhalisinin sayına müvafiq olaraq, uzun illər ərzində çörək təminatı üçün zəruri olan un tələbatının planlaşdırılan həcminə uyğun buğdanın yalnız 20-25%-lik hissəsi respublikadaxili istehsal hesabına təmin edilmiş, qalan hissəsi ya əsasən Rusiya Federasiyası, Ukrayna, Qazaxıstandan, və ya 1961-ci ildən sonra SSRİ-yə xaricdən idxal hesabına təmin edilmişdir. Azərbaycanda unüyütmə istehsal güclərinin tikintisinə kapital qoyuluşu ayrıca diqqət mərkəzində olmadığı üçün, 1970-ci ilə kimi un tələbatının əsas hissəsi Bakıda yerləşən iki böyük dəyirman hesabına – hələ 1920-ci ildən əvvəl o vaxtki milyonerlər Ağabala Quliyev və Hacı Zeynalabdin Tağıyev tərəfindən tikilmiş birincisi hazırki şəhərin mərkəzində Nizami küçəsində, ikincisi Zığda yerləşən – həyata keçirilmiş, çatmayan hissə Gəncədəki dəyirman istehsal güçü və əksərən isə SSRİ-nin digər respublikalarından ittifaq nazirliyinin bölgüsünə müvafiq olaraq dəmir yolu daşımaları vasitəsi ilə təmin edilmişdir.

Təbii ki, belə yanaşma məhsuldar qüvvələrin yerləşdirilməsi, Azərbaycanın sənaye potensialının möhkəmləndirilməsi ilə bağlı Ümummilli Liderin baxışlarına uyğun gələ bilməzdi. Və artıq 1980-cı ilə kimi Gəncədə, Salyanda, Bakıda hər biri sutkada 240 ton, Qaxda 100 ton buğda üyütmə gücü olan dəyirman, Gəncədə və Bakıda hər birinin tutumu 44 min ton, Salyanda 62 min tonluq elevator (eyni vaxtda bu miqdar taxıl saxlama qabiliyyəti olan müasir tipli anbar) tikilib istifadəyə verilmişdi.Yuxarıda qeyd etdiyimiz, Bakıda yerləşən iki köhnə dəyirmanın yenidən qurulması hesabına hər birinin sutkalıq istehsal gücü 150 ton artırılmışdı. Başqa sözlə desək, 10 il ərzində əvvəlki 50 ildəki mövcud olmuş gücə bərabər yeni unüyütmə gücü olan müəssisələr yaradılmışdı ki, bu da əhalinin un-çörək təminatının stabilliyinin təminatı üçün ciddi əhəmiyyət kəsb edirdi. Belə ki, Azərbaycanın ərzaq buğdası ilə təminatı üzrə mərkəzi hökumətdən asılılığı aradan qalxmırdısa da (qeyd etdiyimiz kimi, Azərbaycandan pambıq istənilir, taxılla təminatı isə mərkəzi hökumət öz üzərinə götürmüşdü), ən azından Azərbaycana gətirilən çatmayan miqdarın hazır un şəklində yox, xammal kimi buğda şəklində daxil olması təmin edilirdi ki, bu da bir tərəfdən iş yerləri probleminin həlli, digər tərəfdən buğda emalından alınan kəpək və dən qarışığının xammal kimi qarışıq yem sənayesinin potensialının artırılmasına xidmətini ehtiva edirdi. Məhz bunun nəticəsi idi ki,

**AUDİT 2023, 1 (39), səh. 165-173.**
**AUDIT 2023, 1 (39), pp. 165-173.**
**АУДИТ 2023, 1(39), стр. 165-173.**

1970-ci ildən sonrakı 10 il müddətində taxıl emalı sənayesinin digər seqmenti olan qarışıq yem (kombikorma istehsalı) sənayesində yeni istehsal güclərinin tikintisi sürətlənmiş, əvvəlki onilliklərdə fəaliyyət göstərmiş primitiv, əsasən əl əməyinə əsaslanan Xaçmaz, Yevlax, Salyan, Horadiz qarışıq yem istehsalı zavodlarından fərqli olaraq, hər birinin sutkalıq istehsal gücü 630 ton olan, istehsal proseslərinin avtomatlaşdırıldığı qarışıq yem zavodları Gəncədə və Giləzidə (sonralar rekonstruksiya hesabına sutkalıq gücü 900 tona çatdırılmışdı) tikilərək istifadəyə verilmişdi ki, Azərbaycanda sənaye təmayüllü heyvandarlığın və quşçuluq sənayesinin inkişafı üçün ciddi stimul idi.

Yuxarıda göstərilənlərlə bərabər, 1981-ci ilin sentyabr ayında ölkə rəhbəri, Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK, Azərbaycan SSR Nazirlər Kabineti və SSRİ Tədarük Nazirliyinin birgə sənədi ilə təsdiq olunmuş “Azərbaycan SSR-də un-yarma və qarışıq yem sənayesinin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı tədbirlər haqqında” inqilabi qərar qəbul edilmişdir ki, bu da əslində sonrakı mərhələdə Azərbaycanın taxıl emalı sənayesinin keyfiyyətcə yeni inkişaf mərhələsinə yüksəlməsinin əsasını qoymuşdur. Bu qərarın unukallığı onda idi ki, Sovet tarixi ərzində müttəfiq respublikalardan heç birində əhalinin çörək-taxıl məhsulları təminatının əsası olan taxıl emalı sənayesinin inkişafı ilə bağlı respublika idarəetmə orqanlarının ümumittifaq nazirliyinin birgə qərarı ilə tənzimlənən proqram sənədi qəbul edilməmişdir. Məhz bu qərarla nəzərdə tutulmuş və artıq 1988-cu ilə kimi həyata keçirilmiş tədbirlər nəticəsində yaradılmış müəssisə və istehsal gücləri, 1970-ci ildən sonra yaradılmışlarla birlikdə bu günkü Azərbaycan taxıl emalı sənayesinin əsas, aparıcı platformasını təşkil edir. Belə ki, həmin üçtərəfli sənədin icrasına müvafiq olaraq, Ağdamda və Kürdəmirdə hər birinin istehsal gücü sutkada 240 ton buğda üyüdə bilən dəyirman, Agdamda 80 min ton (respublikada ən böyük), Kürdəmirdə 44 min ton tutumu olan elevator, Bakıda və Dəvəçidə hər biri sutkada 500 ton dən üyüdən dəyirman və 44 min tonluq elevator kompleksləri tikilib istifadəyə verilmişdir. Göstərilən obyektlərdən, ancaq Dəvəçidəki dəyirmanın istifadəyə verilməsi SSRİ-nin 80-cı illərin sonuna başlanmış iqtisadi əlaqələrin pozulması, avadanlıq təchizatında yaranmış çətinliklər ucbatından ləngimiş və 90-cı illərin əvvəlinə təsadüf etmişdir. Məhz Ümummilli Liderin təşəbbüsü ilə qəbul edilmiş yuxarıda göstərilən üçtərfli proqram sənədində nəzərdə tutulmuş unüyütmə istehsal güclərinin tikilib istifadəyə verilməsi artıq 1988-ci ilə kimi Bakı şəhərinin mərkəzində Nizami küçəsində yerləşən, şəhər təsərrüfatı üçün ciddi başağrısına çevrilmiş, ətrafdakı əhalidə narazılıq yaradan sutkalıq güçü 780 tondan yuxarı olan Bakı un zavodunun fəaliyyətinin tədricən dayandırılmasına imkan vermişdir.

Yuxarıda istinad etdiyimiz birgə üçtəfli qərar Azərbaycanda qarışıq yem sənayesinin maddi-texniki bazasının daha da gücləndirilməsinə, ölkədə heyavandarlığın və quşçuluğun sonrakı mərhələdə daha da sürətli inkişafı üçün etibarlı yem təminatı probleminin həllinə şərait yaratmışdı. Belə ki, artıq 1988-ci ilə kimi Bakıda Dərnəgüldə, Ağdamda və Kürdəmirdə hərəsinin sutkalıq istehsal gücü 630 ton qarışıq yem olan zavodların tikilməsi başa çatdırılmış, tədricən köhnə, fiziki və mənəvi cəhətdən köhnəlmiş istehsal güclərinin ləğvi istiqamətində tədbirlərə başlanmış, ilkin mərhələdə Salyandakı qarışıq yem zavodunun fəaliyyəti dayandırılmış və buna baxmayaraq, artıq 1990-cı il üçün respublikada qarışıq yem istehsalının həcminin 1 milyon tona çatdırılması nəzərdə tutulmuşdu.

Məhz 1969-cu ildən sonra, ölkə iqtisadiyyatına kapital qoyuluşlarının artımı ilə Azərbaycanın çörəkbişirmə, qənnadı, makaron sənaye sahələrinin istehsal gücləri ciddi keyfiyyət dəyişikliklərinə məruz qalmışdır. Belə ki, 1969-1985-ci illər ərzində Bakıda bulka-maya kombinatı, Gəncədə qənnadı istehsalı müəssisəsi, Bakıda İtaliyanın “Minelli” şirkətinin avadanlığı əsasında illik gücü 26 min ton olan makaron fabriki, Şirvanda, Salyanda, Göyçayda, Şamaxıda, Sumqayıtda, Mingəçevirdə, Bərdədə, Şəkidə hər birinin gündəlik istehsal güçü 45 ton çörək və çörək məhsulları istehsalı olan müasir tipli zavodlar tikilib istifadəyə verilmiş,

**AUDİT 2023, 1 (39), səh. 165-173.**
**AUDIT 2023, 1 (39), pp. 165-173.**
**АУДИТ 2023, 1(39), стр. 165-173.**

bir sıra müəssisələrdə rekonstruksiya hesabına gündəlik gücü 400 ton olan əlavə istehsal sahələri yaradılmışdı ki, bu da şəhər yerlərində və iri rayon mərkəzlərində əhalinin etibarlı çörək təminatı üçün mühüm əhəmiyyət kəsb edirdi.

Bütövlükdə, taxıl emalı sənayesinin inkişaf yolunu izləyərkən, ölkə əhalisinin taxıl və çörək məhsulları kimi təminatı kimi həyati əhəmiyyətli məsələnin həlli üçün vacib olan etibarlı istehsal potensialının, Azərbaycan iqtisadiyyatının başqa sahələrində olduğu kimi bu sahədə də məhz 1969-cu ildən, Ümummilli Liderin Azərbaycan Respublikasının rəhbərliyinə gəlməsindən sonra, ölkədə başlanmış sürətli quruculuq, iqtisadiyyata kapital qoyuluşunun kəskin artımının nəticəsi olaraq yaranmasını təsdiq etmək mümkündür. Məhz həmin dövrdə yaradılmış potensial və bu bazar seqmentinin özəlləşməyə açıq elan edilməsindən sonra əsasən özəl kapitalın iştirakı ilə yaradılmış yeni, müasir texnologiyalı istehsal gücləri bu gün ölkə əhalisinin taxıl və çörək məhsulları ilə etibarlı təminatını həll etməkdədir.

Siyasi dayanıqlığı olmayan, insan kimi qətiyyətsizliyi və səbatsızlığı ilə fərqlənən Qorbaçovun SSRİ-də hakimiyyətə yüksəlişindən sonra başlanmış dağıdıcı prosesləri hər kəs xatırlayır. Keçmiş ittifaq daxilində təsərrüfat əlaqələrin qırılması, gündən-günə genişlənən dağıdıcı iqtisadi və bundan doğan maliyyə böhranı, təsərrüfatsızlıq və icra intizamının pozulması, mərkəzi hökumətin ikibaşlı davranışları nəticə etibari ilə iqtisadiyyatı katastrofik dərəcədə geriləməyə məruz qoymuş və belə vəziyyətdən Azərbaycan da kifayət qədər ciddi şəkildə təsirlənmişdi. Respublika rəhbərliyində təmsil olunanların bir çoxunun prinsipial, qətiyyətli mövqe tuta bilməməsi, ekstremal şəraitlərdə fərqli davranış və idarəetmə, təşkilatçılıq bacarıqlarını ortaya qoya bilməmələri, alovlanmaqda olan erməni separatizmi ciddi fəsadlarla müşaiət olunmuş və son nəticədə ölkə əhalisinin həyat səviyyəsinin aşağı düşməsinə, güzəranının korlanmasına, müəssisələrin kütləvi şəkildə bağlanmasına, işsizlik faktorunun güclənməsinə gətirib çıxarmışdı.

Artıq 1980-cı illərin axırından başlayaraq, ittifaq hökuməti respublikamız qarşısında taxıl yükləmələri ilə bağlı öhdəlik və qrafikləri, ittifaqdaxili bölgülərdə nəzərdə tutulmuş illik 800 min ton ərzaq buğdası, 140 min ton hazır un göndərişlərini təmin edə bilmirdi. 1991-1992-ci illərdə Türkiyənin qardaş köməyi vəziyyəti müəyyən dərəcədə stabilləşdirməyə imkan verirdisə də, əhalinin istehlak səbətinin sürətlə yoxsullaşması, çörəyin qiymətləri ilə bağlı rasional siyasət yeridilməməsi çörək istehsalını əvvəllər görünməmiş maksimum hədlərə çatdırmış və müvafiq çətinliklər dinamik olaraq artmaqda idi. 1993-cü ilin əvvəlindən başlayaraq, ölkənin taxıl ehtiyatları ən yaxşı hallarda 7-8 günlük resurslarla, əksərən isə 1-2 günlük ehtiyatlar ətrafında dövr edirdi ki, bu da xroniki katastrofik hal kimi qiymətləndirilə bilərdi. Hərc-mərclik, daxili çəkişmələr, xaricdən taxıl alınması üçün maliyyə imkanlarının zəifliyi, ayrılan valyuta vəsaitlərinin başında qurulan oyunbazlıqlar və sui-istifadələr, səriştəsiz rəhbərlik və idarəetmə yaranmış vəziyyəti körükləyən faktorlar idi. Əslində ölkənin taxıl təminatı kimi həyati əhəmiyyətli bir məsələdə çıxış yolu görünmür, fəlakətli vəziyyət xroniki hala çevrilmişdi.

Bu gün geri dönüb olub keçənləri qiymətləndirərkən qəbul etməliyik ki, şəxsiyyətin tarixdəki rolu özünü bir daha təsdiq etmişdir. Ölkənin ictimai-siyasi, iqtisadi həyatında yaranmış böhran Heydər Əliyev kimi rəhbərin hakimiyyətə gəlişini zərurətə çevirmişdi və məhz Ümummilli Liderin 1993-cü ildə hakimiyyətə yenidən gəlməsi ölkəni dağılmaq, fəlakət, özbaşınalıq və o cümlədən aclıq təhlükəsindən xilas etdi. Məhz Ümummilli Liderin qətiyyəti, əzmi, iqtisadi prosesləri qiymətləndirmək, istənilən məsələnin həlli ilə bağlı müxtəlif həll variantları içərisindən ən düzgün, səmərəli olanını fərqləndirmək bacarıqları artıq 1995-ci ildə ölkənin bir çox problemləri ilə bağlı sabitliyin və o cümlədən əhalinin çörək və çörək məhsulları ilə təminatında stabilliyin bərpasına şərait yaratmışdı. Yaranmış sabitliyi itirməmək və əlavə stimullar vermək məqsədi ilə artıq 1996-cı ilin axırlarında Ümummilli Lider Heydər Əliyevin müvafiq qərarı ilə ölkədə taxıl məhsullarının istehsalı, dövriyyəsi, bölüşdürülməsi

**AUDİT 2023, 1 (39), səh. 165-173.**
**AUDIT 2023, 1 (39), pp. 165-173.**
**АУДИТ 2023, 1(39), стр. 165-173.**

sistemi üzərində dövlət inhisarçılığı aradan qaldırıldı ki, bu da əslində inqilabi yanaşma, xüsusi kapitalın ölkə əhlisinin çörək təminatı üçün daha çevik,səmərəli rol oynaya biləcəyinin müdrikcəsinə qiymətləndirilməsi idi. Çünki o vaxt formalaşmış qənaətlərə görə, islahatların ilkin mərhələsində taxıl emalı kompleksinin tam şəkildə dövlətsizləşdirilməsi riskli ola bilərdi və digər sovet respublikalarda da elə bu səbəbdən ləngidilirdi. Amma həyat Ümummilli Lider Heydər Əliyevin müdrikliyini, rasional düşüncə tərzini, uzaqgörənliyini bir daha sübut etdi.

Bünövrəsi Ümummilli Lider tərəfindən qoyulmuş islahatların uğurlu davam etdirilməsi öz bəhrəsini verməkdədir. Araşdırmalar və rəsmi statistika son illər ölkədə taxıl istehsalının ümumi həcminin 3,2-3,5 milyon ton, o cümlədən buğda istehsalının 2 milyon tondan artıq təşkil etdiyini göstərir ki, bu da keçən əsrin 80-cı illərinin səviyyəsi ilə müqayisədə 2,5-2,8 dəfə artım deməkdir. Öz növbəsində 1980-ci illərdə respublikanın ərzaq buğdasına tələbatının 20-25%-lik hissəsi ölkədaxili mənbələr və satınalmalar hesabına təmin olunurdusa, hazırda statistika daxili istehsalın bu tələbatın 50%-ə qədər olan hissəsini təmin etdiyini təsdiq etməyə imkan verir ki, bu da ciddi irəliləyişdir. Şübhə yoxdur ki, ölkə Prezidenti Möhtərəm İlham Əliyevin bu sahəyə verdiyi önəmin, qayğının nəticəsi kimi 19 iyul 2022-ci il tarixli "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Fərmanı ilə nəzərdə tutulmuş stimullaşdırıcı tədbirlərin cari ildən həyata keçirilməsinə başlanılması və işğaldan azad olunmuş bölgələrdə taxıl əkini sahələrinin genişləndirilməsi ərzaq buğdasına olan tələbatın ödənilməsində ölkədaxili istehsal hesabına yaranan resursların xüsusi çəkisinin daha da artırılmasına müvafiq şərait yaradacaqdır.

## Y E K U N

Beləliklə, istər 1969-cu ildən sonrakı, istərsə də 1993-cü ildən sonrakı dövrü gərgin ictimai-siyasi, sosial-iqtisadi, beynəlxalq və hüquqi cəhətləri ilə birlikdə nəzərdən keçirərək təsdiq etmək olar ki, hər iki tarixi dönəmdə, xüsusi ilə müstəqillikdən sonrakı illərdə Ümummilli Lider Heydər Əliyev şəxsiyyətinin fenomenallığı və nəhəngliyi ilə tarixə meydan oxumağı bacardı. Ulu Öndər Heydər Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində Azərbaycan tədricən öz inkişafını yenidən bərpa edə bilmiş və getdikcə qüdrətlənir. Bu inkişaf hər sahədə özünü göstərir. Bura bütün sahələri, sahibkarlıq fəaliyyətini, kənd təsərrüfatını, qabaqcıl texnologiyalara əsaslanan sənaye sahələrini və rabitəni, bank-maliyyə, vergi sektorunu və digərlərini daxil etmək olar. 2020-ci ilin payızında Ali baş komandan Prezident İlham Əliyevin başçılığı altında 44 günlük müharibədə əldə olunan tarixi nəticələr Azərbaycanın qüdrətinin təcəssümüdür.

Müasir dövrdə davam etdirilən istər iqtisadi, istər siyasi, istərsə də hərbi inkişaf strategiyası nəticəsində əldə olunan uğurlar Azərbaycanın gələcək inkişafına daha ciddi zəmin yaradır.

## İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 2 fevral 2021-ci il, Bakı, 101 səh.
2. Əliyev Heydər. "Müstəqilliyimiz əbədidir". Bakı, 1997. 608 səh.
3. Əliyev Heydər. "Müstəqilliyimiz əbədidir". Bakı, 1997. 488 səh.
4. Əliyev Heydər. "Müstəqilliyimiz əbədidir". Bakı, 1998. 520 səh.
5. Əliyev İlham. "İnkişaf məqsədimizdir". Bakı, 2009. 492 səh.

**AUDİT 2023, 1 (39), səh. 165-173.**
**AUDIT 2023, 1 (39), pp. 165-173.**
**АУДИТ 2023, 1(39), стр. 165-173.**

*Arif Lutvali Aliyev,*
*Ph.D. (Econ.),*
*Baku Business University,*
*E-mail: barif1956@mail.ru*
*© A.L. Aliyev, 2023*

# HEYDAR ALIYEV AND THE DEVELOPMENT PRIORITIES OF GRAIN FARMING IN AZERBAIJAN

## A B S T R A C T

National leader Heydar Aliyev's unique place and role in the history of modern Azerbaijan, which established its independence, his successful foreign and domestic policy, and the huge construction works carried out in connection with the strengthening of the country's economic potential, will be the subject of investigation and research for many years to come.

In the presented article, the activities carried out by the Great Leader in the period of his leadership in 1969-1982 through the involvement of huge capital investments in the reconstruction and development of the national economy sectors are again highlighted by presenting the relevant dynamics and indicators, and in this aspect, for the reliable food supply of the population In the grain complex of strategic importance, in the organization of the country's grain processing industry, the work done in the creation and development of the production forces that make up the leading part of this industrial segment is discussed in details.

Accordingly, at the beginning of the second stage of the National leader Heydar Aliyev's leadership, the situation in which the crisis in the socio-economic and political conditions reached its apogee, as well as the main reasons for the deplorable situation in providing the country's population with grain and bakery products as the main food outcome, are indicated in the article. The author emphasizes that the situation has been stabilized and reforms in this field have been started without wasting time, as a result of the National leader's determination, will and wisdom, and he considers this approach to be a successful solution model.

Finally, the author pays attention to the increase of the specific weight of domestic sources in providing the population with grain and bakery products, as a concrete result of the reforms carried out by President Ilham Aliyev in the grain complex of the country in recent years, which is the continuation of the legacy left by the National leader Heydar Aliyev. It is predicted that the implementation of these measures, freedom from occupation together with the expansion of grain crops in the occupied lands that the most important part of the demand for wheat in the country will be stimulated by local production.

**Keywords:** grain complex, strategic area, processing, reform, capital investment.

**AUDİT 2023, 1 (39), səh. 165-173.**
**AUDIT 2023, 1 (39), pp. 165-173.**
**АУДИТ 2023, 1(39), стр. 165-173.**

*Алиев Ариф Лютвели оглы,*
*кандидат экономических наук,*
*Бакинский Университет Бизнеса,*
*E-mail: barif1956@mail.ru*
*© Алиев А.Л., 2023*

# ГЕЙДАР АЛИЕВ И ПРИОРИТЕТЫ РАЗВИТИЯ ЗЕРНОВОГО ХОЗЯЙСТВА В АЗЕРБАЙДЖАНЕ

## Р Е З Ю М Е

Уникальное место и роль в истории современного Азербайджана Общенационального Лидера Гейдара Алиева, его успешная внешняя и внутренняя политика, укрепление экономического потенциала страны будут предметом исследования и изучения еще много лет.

В представленной статье еще раз освещается его деятельность в период руководства в 1969-1982 годах по реконструкции и развитию народного хозяйства Азербайджана путем привлечения огромных капиталовложений, представлением соответствующей динамики и экономических показателей. В статье подробно обсуж-дается развитие зернового комплекса, имеющего стратегическое значение, реорганиза-ция зерноперерабатывающей промышленности страны, проведение работ по созданию и развитию производительных сил, составляющих ведущие части этого промышленного сегмента также сегодня.

В статье обсуждаются основные причины сложного положения в обеспечении населения страны зерном и хлебобулочными изделиями в качестве основных продуктов питания в начале второго этапа руководства страной Общенационального Лидера Гейдара Алиева при ситуации, когда кризис социально-экономических и политических условий достиг своего апогея. Автор подчеркивает, что ситуация стабилизировалась и реформы в этой сфере были начаты без потери времени, в результате целеустремленности, решительности, воли и мудрой дальновидности Общенационального Лидера. Это является моделью успешного решения.

Наконец, автор обращает внимание на увеличение удельного веса внутренних источников в обеспечении населения зерном и хлебобулочными изделиями, как конкретный результат реформ, проведенных Президентом Ильхамом Алиевым в зерновом комплексе страны в последние годы, что является продолжением наследия, оставленного Общенациональным Лидером Гейдаром Алиевым. По мнению автора реализация этих мероприятий, вместе с расширением посевов зерновых в освобожденных от оккупации территориях приведет к тому, что важнейшая часть спроса на продовольственную пшеницу в стране будет обеспечено в основном за счет внутренних источников.

**Ключевые слова:** зерновой комплекс, стратегическое направление, переработка, реформа, капитальные вложения.

*Məqalə redaksiyaya daxil olmuşdur: 17.02.2023*
*Təkrar işləməyə göndərilmişdir: 24.02.2023*
*Çapa qəbul olunmuşdur: 03.03.2023*

*Дата поступления статьи в редакцию: 17.02.2023*
*Отправлено на повторную обработку: 24.02.2023*
*Принято к печати: 03.03.2023*

*The date of the admission of the article to the editorial office: 17.02.2023*
*Send for reprocessing: 24.02.2023*
*Accepted for publication: 03.03.2023*